# Azərbaycanın təşəbbüsləri dünya liderləri tərəfindən təqdir edilir

Bəşəriyyət yaranandan bu günə qədər hər bir cəmiyyət, xalq və dövlət üçün onun liderinin kimliyi əsas amil olub. Bu gün də belədir. Ölkəmizin hazırda uğurlu inkişaf mərhələsini yaşaması faktı da deyilənləri sübut edir. Azərbaycan 30 il işğal altında qalan torpaqlarını azad edib, yeni reallıqlar yaradıb. Bu qələbənin təminatçısı isə dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevdir. O, ölkəyə rəhbərliyi dövründə cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimadını qazanan liderə çevrilib.

İnkaredilməz faktdır ki, son 18 ildə Azərbaycan söz və nüfuz sahibi kimi qlobal proseslərdə aktiv mövqeyi ilə seçilir. Xüsusilə də Prezident İlham Əliyevin müstəqil siyasəti Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsini, nüfuzunun davamlı olaraq yüksəlməsini təmin edib. Vətən müharibəsindəki Zəfərimiz isə ölkəmizin siyasi çəkisini daha da yüksəldib.

Ölkə çərçivəsində liderlik etmək xalqın etibarını qazanmaqdan qaynaqlanırsa, qlobal səviyyəli lider kimi özünü təsdiqləmək üçün isə dünya ölkələrinin etibarını qazanmaq əsas şərtdir. Azərbaycan Prezidenti bu etimadı çoxdan qazanıb və sözünə, vədinə sadiq lider kimi ölkəmizi dünyada ən etibarlı tərəfdaşa çevirib.

**(davamı 6-cı səhifədə)**

# Azərbaycanın təşəbbüsləri dünya liderləri tərəfindən təqdir edilir

**(əvvəli 1-ci səhifədə)**

Cənubi Qafqaz regionunda geosiyasi və geoiqtisadi çəkisi gündən-günə artan, Avrasiyanın əlverişli nəqliyyat-logistika mərkəzinə çevrilərək qitənin enerji xəritəsini yenidən tərtib edən Azərbaycan reallaşdırdığı transmilli layihələrlə beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Açıq dənizə çıxışı olmayan bir ölkənin qısa zamanda Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə çevrilməsi, həqiqətən də, ölkəmiz üçün böyük nailiyyətdir. Bu uğurlar Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyevin həyata keçirdiyi tam müstəqil və düşünülmüş siyasəti fonunda əldə edilib.

Bu gün Azərbaycanın iştirakı olmadan bölgədə hər hansı beynəlxalq layihənin reallaşması qeyri-mümkündür. Şərqdən-qərbə, şimaldan-cənuba gedən ən qısa yollar Azərbaycandan keçdiyi üçün əksər beynəlxalq layihələr ölkəmizin razılığı əsasında gerçəkləşir.

Azərbaycanın reallaşdırdığı və qoşulduğu beynəlxalq enerji layihələri ölkəmizə siyasi və iqtisadi dividendlər qazandırır. İndi Azərbaycan Cənubi Qafqazda ən böyük investisiya layihələrinə sahibdir.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhfələr vermişdir. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan Cənub Qaz Dəhlizinin tərkib hissəsi, TANAP və TAP layihələri, həmçinin "Şahdəniz-2" layihəsi Azərbaycanın təşəbbüsü və təşkilatçılığı ilə reallaşmışdır.

Tranzit potensialının reallaşdırılması istiqamətində də irimiqyaslı layihələr həyata keçirilmiş, o cümlədən Avropa-Qafqaz-Asiya (TRASECA) nəqliyyat dəhlizinin fəaliyyəti güclənmiş, Bakı-Tbilisi-Qars dəmir yolu istismara verilmişdir. Prezident İlham Əliyevin təşəbbüsü və prinsipial mövqeyi sayəsində tikilən və əhəmiyyətinə görə "Dəmir ipək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsindən sonra dəhlizin quru xətlə birbaşa Avropaya çıxışına imkan yaranıb. Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol olan Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi ilə "Şərq-Qərb Beynəlxalq nəqliyyat dəhlizi" üzrə konteyner daşımalarında xeyli artıma nail olunub. Artıq türk dövlətləri də Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edir.




Ümumiyyətlə, Azərbaycanın təşəbbüsü ilə reallaşan enerji layihələri türk dövlətlərini birləşdirir, Qazaxıstan və Türkmənistanın ixrac imkanlarını artırır. Türkiyə isə neft-qaz boru kəmərlərinin keçdiyi əsas tranzit ölkədir. Bütün bunlar Azərbaycanın türk dünyasına böyük ərməğanıdır. Respublikamız şaxələndirilmiş nəqliyyat sistemi və logistika imkanları ilə həm də türk dünyasına öz töhfəsini verir. İlham Əliyev, həmçinin qlobal səviyyədə insanların sağlamlığının qorunması naminə irəli sürdüyü təşəbbüslərlə də dünya siyasətçiləri arasında xüsusi fərqlənir. Dövlət başçısının təşəbbüsləri dünya ölkələri tərəfindən təqdir edilir.

Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Prezidenti qlobal pandemiya ilə mübarizə tədbirləri çərçivəsində təkliflər irəli sürərkən ümumbəşəri bəlaya qarşı ən effektiv mübarizənin əməkdaşlıqdan keçdiyini söyləmişdi. Ötən il aprel ayında İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının Türk Şurasının koronavirusla mübarizəyə həsr olunmuş Zirvə görüşü keçirildi. Dövlət başçısının pandemiyaya qarşı mübarizənin ilk günlərindən irəli sürdüyü "Biz birlikdə güclüyük!" çağırışı birinci dəfə bu Zirvə görüşü zamanı qlobal çevrədə öz real ifadəsini tapdı. 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşündə Azərbaycan Prezidenti BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsini təklif etmiş və bu təşəbbüsü Hərəkata üzv olan 120 ölkə, o cümlədən BMT-nin 150-dən çox üzv dövləti dəstəkləmişdi. Dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilmişdir.

Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamənin 2021-ci ilin martında yekdilliklə qəbul olunması da tarixi hadisə idi. Çünki dünyada ayrı-seçkiliyi göstərən bu çıxışla İlham Əliyev peyvənd millətçiliyinə və qeyri-bərabər, ədalətsiz paylanmaya qarşı dünyada həmrəyliyə çağırış edən ilk lider kimi tanındı. BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində noyabrın 18-də keçirilən Assambleyanın Üçüncü Komitəsində Qoşulmama Hərəkatının sədri qismində İlham Əliyevin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlər tərəfindən qəbul edilib. Qətnaməyə BMT-nin 126 üzv dövləti həmmüəllif qismində qoşulub. Həmin qətnamədə digər məsələlərlə yanaşı, COVID-19 pandemiyasına qarşı mübarizə sahəsində həyata keçirilmiş bir sıra əhəmiyyətli qlobal təşəbbüslər, o cümlədən Azərbaycan Prezidentinin təklifi ilə 2020-ci il dekabrın 3-4-də baş tutmuş BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası da alqışlanıb.

Vətən müharibəsindən sonra yeni reallıqlar yaranıb və bu reallıqlar müasir çağırışlara cavab verən əməkdaşlıq formatlarının vacibliyini ortaya çıxarır. Azərbaycanın irəli sürdüyü 3+3 formatı da region dövlətlərinin dəstəyini tapıb. Bu formatda əməkdaşlığa böyük önəm verən dövlətlərin hər biri üçün sərfəli olan bu layihənin reallaşdırılması istiqamətində iş aparılır.

Bütün bunlar onu göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev bu gün qlobal səviyyədə beynəlxalq əməkdaşlıq və təhlükəsizliyə mühüm töhfələr verir. Onun irəli sürdüyü təşəbbüslərin dünya liderləri tərəfindən dəstəklənməsi, təqdir olunması isə ölkəmizin etibarlı tərəfdaş kimi nüfuzunu artırır, Azərbaycan Prezidentinin qlobal təşəbbüslər müəllifi olduğunu bir daha təsdiqləyir.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2022.- 25 fevral.- S.1;6.